**“Dərman vasitələrinin idxalına icazə verilməsi üçün müraciətin və sənədlərin qəbulu” elektron xidmətininin təlimatı**

Bu xidmət vasitəsilə dərman vasitələrinin idxalına icazə verilməsi üçün müraciət və sənədlərin qəbulu mümkündür.

Xidmətdən istifadə etmək üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin *sehiyye.gov.az* saytına, Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin *e-sehiyye.gov.az* rəsmi saytına və yaxud Elektron hökümət portalına *e-gov.az* daxil ola bilərsiz. Daha sonra Səhiyyə Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən “Dərman vasitələrinin idxalına icazə verilməsi üçün müraciətin və sənədlərin qəbulu” elektron xidmətini seçmək lazımdır. (Şəkil 1)




***Şəkil 1***

Elektron xidmətə daxil olduqdan sonra açılan pəncərədə, *"Ərizələrim"* bölməsində sistem istifadəçinin göndərmiş olduğu ərizələrin siyahasını verir. (Şəkil 2)




***Şəkil 2***

İstifadəçi yeni ərizə göndərmək üçün *"Yeni ərizə"* bölməsinə daxil olmalıdır. Müraciət edənin hüquqi və ya fiziki şəxs olduğunu qeyd etməlisiniz. (Şəkil 3)




***Şəkil 3***

Əgər müraciət edən hüquqi şəxsdirsə o zaman aşağıda göstərilən xanaları daxil etməlisiz: (şəkil 4)

- Müəssisə rəhbərinin adı
- Müəssisə rəhbərinin soyadı
- Müəssisə rəhbərinin atasının adı
- Hüquqi şəxsin adı
- Təşkilatı hüquqi forması
- Hesablaşma-hesabının olduğu bank
- Hesablaşma-hesabının nömrəsi



Hüquqi şəxs

Şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi

Şəxsiyyət vəsiqəsini verən orqan

Şəxsiyyət vəsiqəsinin verilmə tarixi

Müəsisə rəhbərinin Adı :*

Müəsisə rəhbərinin Soyadı :*

Müəsisə rəhbərinin Atasının adı :*

Hüquqi şəxsin adı:*

Təşkilatı hüquqi forması:* Seçin...

Hesablaşma-hesabının olduğu bank:* Seçin...

Hesablaşma-hesabının nömrəsi:*

***Şəkil 4***

Növbəti mərhələdə istifadəçi *"Şəxsi məlumatlar"* bölməsində yaşayış ünvanını, fəaliyyət ünvanını, ev və ya iş telefon nömrəsini, faks nömrəsini, mobil telefon nömrəsi barədə məlumatları daxil etməlidir. (Şəkil 5)




*Şəkil 5*

***Qeyd: * işarəli xanaları daxil etmək mütləqdir.***

Növbəti mərhələdə ərizəçinin vergi orqanları tərəfindən uçota alınması haqqında müvafiq sənədi, yük göndərənin yük alıcısı ilə müqaviləsi və ya bunu əvəz edən sənədi, mənşə sertifikatını və s. sənədləri *"Yüklə"* düyməsindən istifadə etməklə yükləmək lazımdır. (Şəkil 6)



Ərizəyə aşağıdakı sənədlər əlavə edilməlidir

| Say | Sənədin adı | əl ilə daxil edəcəm | Yüklə |
|---|---|---|---|
| 1 | Ərizəçinin vergi orqanları tərəfindən uçota alınması haqqında müvafiq sənəd | | Yüklə |
| 2 | Yük göndərənin yük alıcısı ilə müqaviləsi və ya bunu əvəzedən sənəd | | Yüklə |
| 3 | İstehsalçı tərəfindən verilmiş keyfiyyət sertifikat(lar)ı və ya analiz protokol(lar)ı (yalnız dərman preparatları üçün) | | Yüklə |
| 4 | Mənşə sertifikatı | | Yüklə |

Yadda saxla | Yadda saxla və Təsdiq et

*Şəkil 6*

Sonda istifadəçi *“Yadda saxla”* düyməsindən istifadə etməklə yaradılmış müraciəti yadda saxlayaraq sonra göndərə və ya *“Yadda saxla və Təsdiq et”* düyməsindən istifadə etməklə yaradılmış müraciəti Səhiyyə Nazirliyinin müvafiq qeydiyyat orqanına göndərmiş olur.

Ərizəni göndərdikdən sonra qeyd etdiyiniz elektron ünvana Səhiyyə Nazirliyi tərəfindən müraciətinizdə təqdim olunan ərizəyə baxılması barədə bildiriş göndəriləcəkdir.

Azərbaycan Respublikası, Bakı şəhəri,

AZ 1022 akad. M.Mirqasımov küç. 1A

Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi

Tel: (+99412) 596 80 44, (+99412) 431 38 2

www.e-sehiyye.gov.az